| | | | |
|---|---|---|---|
| | **Fənnin adı, kodu və kreditlərin sayı** | **GEOG 201, Dünyanın regional coğrafiyası,**<br>kredit sayı-3 (6 AKTS) | |
| | **Departament** | Coğrafiya və Ətraf Mühit | |
| | **Proqram (bakalavr, magistr)** | Bakalavr | |
| | **Tədris semestri** | 2019/2020-ci tədris ilinin yaz semestri | |
| | **Fənni tədris edən müəllim (lər)** | Elvira Məmmədli | |
| | **E-mail:** | elviramammadli@hotmail.com | |
| | **Telefon:** | | |
| | **Mühazirə otağı/Cədvəl** | | |
| | | | |
| **Prerekvizitlər** | Yox | | |
| **Tədris dili** | Azərbaycan | | |
| **Fənnin növü (məcburi, seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | 1. Əliyev M.C., Həsənli F.A. Coğrafiya kəşflərinin tarixi və səyyahlar (pedaqoji universitetlər üçün dərs vəsaiti). Bakı, 2009.<br>2. B.S.Cəfərov. Materiklərin fiziki coğrafiyası. Bakı. 2014. 279 s.<br>3. Z.N.Eminov. Coğrafiya. (məlumat kitabı), Bakı. “Çıraq”, 2004, 656 s.<br>4. Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. Bakı: Sabah. 2011. 583 s.<br>5. Müəllimin mühazirələri. | | |
| **Tədris metodları** | Mühazirə | | |
| | Qrup müzakirəsi | | |
| | Fərdi tapşırıqlar | | |
| | Xəritə üzərində iş | | |
| **Qiymətləndirmə** | Komponentləri | Tarix/son müddət | Faiz (%) |
| | Aralıq imtahanı | Aprel ayı | 30 |
| | Aktivlik | | 5 |
| | Kuiz | Mart; May | 10 |
| | Kurs işi (Esse) | | 10 |
| | Davamiyyət | | 5 |
| | Final imtahanı | Iyun ayı | 40 |
| | Yekun | | 100 |
| **Kursun təsviri** | “Dünyanın regional coğrafiyası” kursu tədris olunarkən tələbələrə dünyanın və onun materiklərinin təbiəti, o cümlədən təbii-coğrafi şəraiti, relyefi, faydalı qazıntıları, iqlimi və s., həmçinin dünyanın ayrı-ayrı makroregionlarının əhalisi, təsərrüfat sahələrinin vəziyyəti və sosial-iqtisadi inkişafı barədə məlumat veriləcək. Kursun tədrisi Azərbaycan dilindədir, onun tədrisi zamanı müxtəlif ədəbiyyat materialllarından, internet resurslardan, həmçinin ən son statistik göstəricilərdən istifadə ediləcəkdir. | | |
| **Kursun məqsədi** | Kursun məqsədi dünyanın, onun ayrı-ayrı materiklərinin | | |

| | |
|---|---|
| | təbiəti, həmçinin ayrı-ayrı regionlarının əhalisi və təsərrüfatı haqqında tələbələrə yeni biliklər aşılamaqdır. |
| **Tədrisin (öyrənmənin) nəticələri** | **Semestrin sonunda tələbələr aşağıdakıları bacaracaqlar:**<br>1. Coğrafiya sahəsindəki indiyədək malik olduqları biliklərini genişləndirmiş olacaqlar, Yer planetinin təbiəti haqqında geniş biliklər əldə edəcəklər.<br>2. Dünyanın ayrı-ayrı materiklərinin təbii-coğrafi şəraiti, relyefi, faydalı qazıntıları, iqlimi, bioloji ehtiyatları və s. barədə məlumat əldə edəcəklər.<br>3. Dünya ölkələrinin qeyri-bərabər inkişaf səviyyəsində olmasının, bir qisminin inkişaf etmiş, digərlərinin inkişafda olan ölkələr qrupuna aid edilməsinin səbəblərini öyrənmiş olacaqlar.<br>4. Dünyanın müxtəlif makroregionlarının əhalisi və təsərrüfatının inkişaf xüsusiyyətləri haqqında biliklər əldə edəcəklər. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | Tədrisin keyfiyyətini təmin etmək məqsədilə mümkün qədər illüstrativ materiallara (on-line xəritələrə, qrafik təsvirlərə və diaqramlara) geniş yer ayrılmışdır.<br>Aktivlik (fəallıq) 5 balla qiymətləndirilir. Belə ki, tələbənin dərs zamanı ümumi hazırlığı, müəllimin qrupa ünvanlandığı suallara fəal şəkildə cavab verməsinin nəticələri 0-1 balla qiymətləndirilir. Semestrin sonuna qədər bu ballar yığılır (maksimum 5) və tələbənin “Aktivlik” balı müəyyən edilir. Tələbənin özünü dərsdə diqqətli aparması, nizam-intizamı pozmaması, başqasına dərsi dinləməyə mane olmaması tələb olunur. Tələbə tərəfindən belə hallar təkrarlanarsa, onun “aktivlik” balından çıxılır.<br>Tələbənin dərsə vaxtında gəlməsi, gecikməməsi onun “Davamiyyət” balına yazılır (maksimum 5 bal). Hər 2-ci qaib tələbənin 1 balını silmiş olur.<br>Final və Aralıq imtahanları müəllim tərəfindən ya test, ya açıq sual, yaxud da hər ikisindən istifadə olunmaqla hazırlana bilər.<br>Kuiz üçün 10 bal ayrılıb. Semestr ərzində ən azı iki kuiz keçirilir (iki kuizin hərəsi 5 baldan hesablanacaq). Kuiz sualları həm açıq, həm də test formasında ola bilər. Kurs işinə təqdimat (təxminən 20-25 slayd) daxildir. Kurs işinin qiymətləndirilməsi meyarları bunlardır:<br>1. Mövzunun 8-10 səhifəlik yazıda tam əhatə olunması (2 bal)<br>2. Ən son, çox köhnə olmayan materiallardan istifadə (2 bal)<br>3. Alınan nəticələrin konkret və elmi baxımdan məntiqli olması (2 bal)<br>4. Kurs işinin təqdimatı zamanı qazanılmış biliklərin yaxşı və sərbəst nümayiş etdirilməsi – çıxışın keyfiyyəti (2 bal)<br>5. Təqdimatdan sonra verilən suallara cavabların verilə bilməsi (2 bal)<br>Kurs işini təhvil tarixindən gec təqdim etmiş tələbə avtomatik olaraq 1-2 bal itirmiş olur. |
| | |

| Cədvəl | | | |
|---|---|---|---|
| | **Tarix** | **Fənnin mövzuları** | Tədris materialları |
| 1 | 15.02.2019 | Coğrafiya nəyi öyrənir? İlk coğrafi kəşflər və səyyahlar. Yerin forması, ölçüləri | Əliyev M. C., Həsənli F. A. Coğrafiya kəşflərinin tarixi və səyyahlar. Bakı, 2009. Z.N.Eminov. Coğrafiya. Məlumat kitabı, Bakı. 2004. |
| 2 | 22.02.2019 | Yerin coğrafi təbəqələri. Litosfer və əsas relyef formaları. Yerin atmosferi, iqlimi. | Z.N.Eminov. Coğrafiya. Məlumat kitabı, Bakı. 2004. |
| 3 | 29.02.2019 | Hidrosfer və biosfer təbəqələri. | Z.N.Eminov. Coğrafiya. Məlumat kitabı, Bakı. 2004. |
| 4 | 7.03.2019 | Dünya okeanı və onun hissələri. | Z.N.Eminov. Coğrafiya. Məlumat kitabı, Bakı. 2004. |
| 5 | 14.03.2019 | Avrasiya materiki. Avropanın coğrafi şəraiti və təbii ehtiyatları. | B.S.Cəfərov. Materiklərin fiziki coğrafiyası. Bakı. 2014. |
| 6 | 28.03.2019 | Asiyanın coğrafi şəraiti və təbii ehtiyatları. | B.S.Cəfərov. Materiklərin fiziki coğrafiyası. Bakı. 2014. |
| 7 | 04.04.2019 | Afrika, Avstraliya və Antarktidanın coğrafi şəraiti və təbii ehtiyatları. | B.S.Cəfərov. Materiklərin fiziki coğrafiyası. Bakı. 2014. |
| 8 | 11.04.2019 | Şimali və Cənubi Amerikanın coğrafi şəraiti və təbii ehtiyatları. | B.S.Cəfərov. Materiklərin fiziki coğrafiyası. Bakı. 2014. |
| 9 | 18.04.2019 | Dünyanın regionları. İnkişaf etmiş və inkişafda olan ölkələr, onların sosial-iqtisadi xüsusiyyətləri. | Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. Bakı. 2011. |
| 10 | 25.04.2019 | Avropa regionu, əhalisi və təbii ehtiyatları, iqtis.-coğr. səciyyəsi | Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. Bakı. 2011. |
| 11 | 02.05.2019 | Asiyanın regionları, əhalisi və təbii ehtiyatları. | Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. Bakı. 2011. |
| 12 | 09.05.2019 | Çinin və Yaponiyanın ümumi iqtisadi-coğrafi səciyyəsi. | Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. Bakı. 2011. |
| 13 | 16.05.2019 | Şimali Amerika. ABŞ-ın əhalisi və təb.ehtiyatları, iqt.-coğr. səciyyəsi | Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. Bakı. 2011. |
| 14 | 23.05.2019 | Latın Amerikası ölkələrinin əhalisi və iqt.-coğr. səciyyəsi | Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. Bakı. 2011. |
| 15 | 30.05.2019 | Afrika ölkələrinin əhalisi, iqtisadi-coğrafi səciyyəsi | Dünyanın iqtisadi və sosial coğrafiyası. H.B.Soltanovanın redaktəsi ilə. Bakı. 2011. |

Bu tədris proqramı fənn haqqında tam məlumatı özündə əks etdirir və hər hansı dəyişiklik barədə öncədən xəbər veriləcək.